# Gənc musiqiçinin uğurları

**Musiqinin yaşı bəşər tarixi qədər qədimdir. Daha dəqiq desək, onun yaranışı bilavasitə insanın yaranışı ilə bağlıdır. Bəşər övladı zaman-zaman yaşadıqlarını, gördüklərini, düşüncələrini, sevinclə kədərini musiqi dili ilə danışıb, başqaları ilə bölüşüb. Tarixin bütün mərhələlərində musiqiyə, nəğməyə həmişə ehtiyac yaranb. Bu qədim incəsnət növü dünya xalqlarının əsil mənəviyyat çeşməsinə çevrilib. Azərbaycan xalqının da özünəməxsus musiqi aləmi, musiqi dünyası vardır. Necə deyərlər, musiqi xalqımızın canında, qanında, ruhundadır. Öz ahəngarlığı, şirinliyi, ifa gözəlliyi ilə seçilən milli musiqimiz dünya mədəniyyət xəzinəsinə qiymətli incilərlə zənginləşdirib.**

Ölkəmizin hər bir guşəsində musiqi sənətinə yüksək dəyər verilir, məhəbbət, hörmət bəslənilir. Ağcabədililər də musiqiyə, nəğməyə, muğamata ürəkdən bağlı olan insanlardır. Təsadüfi deyildir ki, Qarabağın bu qədim bölgəsi musiqiçilər, musiqisevənlər diyarı adlandırılır. Ağcabədili musiqiçilər, muğam ifaçıları, bəstəkarlar nəinki respublikamızda, onun hüdudlarından kənarda da məşhurdurarlar.

Dahi Üzeyir Hacıbəyli, Vasif Adıgözəlov, Cavanşir Quliyev, Mütəllim Mütəllimov, Zülfü Adıgözəlov, Yaqub Məmmədov, Səfa Qəhrəmanov, Sahibə Əhmədova, Sabir Novruzov və digər görkəmli musiqi xadimləri Ağcabədi torpağının yetirmələridir.

Adıçəkilən bölgənin Xocavənd kəndi də istedadlı musiqiçiləri, ifaçıları ilə tanınır. Respublikanın əməkdar artisti Könül Kərimova, İnqilab Quliyev, Cavanşir Əliyev belə sənətçilərdəndir. Gənc pianoçu, bəstəkar Pərvin Niyazova onların sırasında özünəməxsus yer tutur. O, lap kiçik yaşlarından ecazkar musiqi sənətinə sonsuz həvəs və maraq göstərib. Atası Əlinağı Niyazov Pərvində olan bu yüksək zövq və marağı nəzərə alaraq, onun 1992-ci ildən fəaliyyət göstərən Xocavənd kənd uşaq musiqi məktəbinin fortepiano şöbəsində təhsil alması qərarına gəlib. İstedadlı qız burada musiqi məşğələlərində fəal iştirak edib, öz ifaçılıq bacarığı ilə yaşıdlarından fərqlənib. Sözügedən kənd musiqi məktəbində təhsil aldığı illərdə o, rayonda və respublikada keçirilən müxtəlif müsabiqə və festivallarda yaxından iştirak edib, uğurlu çıxışlarına görə dəfələrlə fəxri fərmanlarla təltif olunub.

Pərvinin 2005-ci ildə 13 yaşında ikən şair Tahir Rzanın sözlərinə



bəstələdiyi "Nəvə Heydər babasına tay olsun" mahnısı rayon tədbirlərində tez-tez səsləndirilib. Həmin mahnı "Gənclərin özfəaliyyətləri" konsert proqramında xüsusi mükafata layiq görülüb.Qazandığı ilk uğurlar, tamaşaçı alqışları, mütəxəssislərin verdikləri qiymət təbii ki, onu daha yüksək zirvələr fəth etməyə ruhlandırıb. Gənc musiqiçi bir-birinin ardınca "Heydər Baba", "Şəhid qanı yerdə qalmasın gərək", "Yoxsan mənimçün", "Son zəng" kimi mahnılarını notlara köçürüb.

P.Niyazova uşaq musiqi məktəbini bitirdikdən sonra təhsilini davam etdirib. O, Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində ali təhsil alaraq "Fortepiano üzrə musiqi müəllimliyi" ixtisasına yiyələnib. Bacarıqlı gənc universiseti uğurla başa vurduqdan sonra Xocavənd kənd uşaq musiqi məktəbində müəllimi kimi fəaliyyət göstərib. Burada öz sevimli müəllimləri ilə çiyin-çiyin işləyib, gənc nəslin musiqi təhsili ilə məşğul olub. Musiqi aləmini dərin bir ümman adlandıran pedaqoq musiqinin sirrlərini yetirmələrinə böyük həvəslə öyrədir.Şagirdlər də öz növbələrində müəllimlərinin ümidlərini layiqincə doğruldur, uğurlara imza atırlar.

Uşaqlarla işləməkdən zövq alan Pərvin müəllim şagirdlərinə fortepianoda ifa etməklə bərabər, onlarda qavrama qabiliyyətinin ikişaf etdirilməsi, səhnə mədəniyyəti asılanması üçün əlindən gələni əsirgəmir. Yetirmələrinə fərdi qaydada yanaşmağı üstünlük verən gənc mütəxəssis onların psioxologiyasını, yaş xüsusiyyətlərini, bacarıqlarını həmişə nəzərə alır.

P.Niyazova Xoavənd kənd uşaq musiqi məktəbində fəaliyyət göstərən xor kollektivini konsertmeyster kimi müşayiət edir, xor ifaçılığının inkişafı üçün həvəslə çalışır. Onun Ağcabədi Pedaqoji Kollecində musiqi müəllim işlənməsi də xüsusi önəm daşıyır. Gənc pedaqoq 2018-ci ildən sözügedən kollecdə gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olur. O,çalışdığı kollektivlərdə dərin hörmət və nüfuz sahibi kimi sayılıb,seçilir.

Pərvin müəllim bəstəkarlıq fəaliyyətini uğurla davam etdirir. Bununla sübut edir ki, əyalətdə də əsil bəstəçi kimi yetişmək mümkündür. Odur ki, yaratdığı musiqi əsərləri bölgədə dillər əzbərinə çevirilib. Onun xalq şairi Bəxtiyar Vahabzadənin sözlərinə bəstələdiyi "Azərbaycan -Türkiyə" mahnısı bu baxımdan diqqəti çəkir. Mahnıda əks etdirilən yüksək vətənpərlik hissi, türk qüruru, qələbə əzmi, iki qardaş xalqın əbədi birlik ruhu ürəklərə hakim kəsilir.Həmin mahnı bəstəkarın rəhbərliyi ilə Ağcabədi Pedaqoji Kollecinin xor kollektivi tərəfindən müxtəlif tədbirlərdə müvəffəqiyyətlə ifa olunur.

**P.Niyazovanın yaradıcılıq planları genişdir. O, hazırda yeni mahnılar üzərində işləyir. İnanır ki, böyük həvəslə qələmə aldığı yeni əsərləri də dileyiiləri sevindirəcək,hər kəsə xoş duğu, əhval-ruhiyyə bəxş edəcək. Bu yolda ona yeni-yeni nailiyyətlər arzulayırıq.**

**Adil Misirli,**
**Ağcabədi rayonu**

Ədalət 2019.- 7 dekabr.- S.13.